8.qxd 28.02.2010 15:42 Page 1

Bizimlə yanaşı olanlar

Ötən ilin sonunda dünya Beynəlxalq Əlillər Gününü qeyd etdi. Bu rəsmi gün Azərbaycanda da keçirildi. Biz növbəti dəfə onlar haqqında düşünməli olduq, kimlərin ki, varlığını adi vaxtlarda "sanki hiss etmirik". Amma onlar bizim aramızdadırlar. Bizimlə bir yerdədirlər, amma sanki "bizimlə deyillər".

Bizim ölkədə çox böyük sayda fiziki cəhətdən qüsurlu şəxslər yaşayırlar. 2009-cu ilin 1 noyabrına olan məlumatlara görə, Azərbaycanda bütövlükdə 1 milyon 289 min 850 nəfər təqaüd alır ki, onlardan 311 min nəfəri əlildir. I qrup əlilliyə görə 22 min 400 nəfər (7,2 %), II qrup əlilliyə görə 260 min 300 nəfər (83,7 %), III qrup əlilliyə görə isə 9,1 faiz təqaüd alır.

Azərbaycanda I qrup gözdən əlillərin sayı 7 min 580 nəfərdir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, ümumiyyətlə, ölkədə 440 min nəfər fiziki cəhətdən qüsurlu şəxslər yaşayır. Bu, çox böyük rəqəmdir və artıq həyəcan təbilinin səslənməsi vaxtının çoxdan yetişdiyini göstərir: Bu şəxslərin indiyə kimi normal, rahat yaşamaları, onların təhsil almaları, istirahət etmələri üçün lazımi şərait yaradılmamışdır.

"Zaur" Xeyriyyə Cəmiyyəti 1999-cu ildən fəaliyyət göstərir. Cəmiyyətin sədri Zaur Seyidzadə ixtisasca rəssamdır. Bir az keçmişdə, yəni 1997-ci ildə fiziki cəhətdən qüsurlu şəxslər arasında keçirilmiş Respublika Sərgi-Müsabiqəsinin qalibi olmuşdur. O zaman Zaur Seyidzadə ümummilli liderimiz Heydər Əliyevlə görüşdə öz ideyasını da irəli sürmüşdür: əlillərə həqiqətən maddi cəhətdən dəstək ola biləcək bir təşkilatın yaranması! Aradan 2 il keçəndən sonra belə bir təşkilat yarandı.

O vaxtdan 11 il keçib. Bu vaxt ərzində cəmiyyət dəfələrlə bu qəbildən olan şəxslər arasında sərgi və müsabiqələr təşkil etmiş, əlillərə hüquqi, psixoloji baxımdan yardımlarla bağlı layihələr həyata keçirmişdir. Yeri gəlmişkən, Zaur özü ikinci təhsil alaraq artıq mükəmməl qaydada onunla eyni taleyi yaşayan soydaşlarımıza hüquqi yardım göstərir.

Bəs, "Zaur " XC-yə taleyinə əlillik yazılmış bu adamlar hansı problemlərlə müraciət edirlər? Problemlərin arasında daha çox təqaüd təminatı, ailə-məişət qayğıları diqqəti cəlb edir.

Mənsə dülgər olardım...

Azərbaycanda, ümumiyyətlə, fiziki cəhətdən qüsurlu şəxslərin "işə qəbul təcrübəsi" yoxdur. Yeri gəlmişkən, "Əlillər haqqında Qanun"a görə (İcra hakimiyyəti orqanlarının təsdiq etdiyi şəxslərin siyahısı istisna olmaqla) mülkiyyət formasından asılı olmayaraq, hər 25 boş iş yerlərindən biri əlillər üçün nəzərdə tutulmalıdır. Məcburi qaydada! Təəssüf ki, bu qanuna bizdə heç kim əməl etmir.

- Bəs işəgötürənlər əlillərə rədd cavabı verərkən nəyi əsas götürür?

- Bir qayda olaraq iş yerlərində əlillər üçün müvafiq texniki şəraitin olmamasını- pandus və s. Eyni zamanda, "Əlilliyin qarşısının alınması, bərpası, əlillərə sosial yardım haqqında" Qanuna görə (1992-ci il) təşkilatlar özü əlillər üçün lazımi şəraiti yaratmalıdır.

Məsələn, pandus hazırlamaq çox çətin bir iş deyil, təki istək olsun. Əgər müəssisələr bunu etmirsə, onlar buna görə cərimə ödəməlidirlər. Qanunda da bu barədə belə söyləniliir. Bu Qanunla əlillərin müəyyən hüquqları təmin olunur, amma bizdə hər yerində duran bunu pozur. Əlillərə müxtəlif ofis (iş yerləri), şirkət və kompaniyalarda işə qəbul məsələlərində lazımi iş şəraiti hökmən yaradılmalıdır. İcra hakimiyyətləri yerlərdə bu Qanunun icrasına nəzarət məqsədilə monitorinq aparılsaydılar, bu işə böyük kömək olardı.

Hələ 1997-ci ildə Əhalinin Əmək və Sosial Müdafiəsi Nazirliyi əlillər üçün tövsiyə olunan peşə və ixtisasların siyahısını təsdiq etmişdir. Bu siyahıya kitabxanaçı, kargüzarlıq, kinomexanik, arxiv işçisi, nəzarətçi, laborant, aşpaz, tibb qeydiyyatçısı, dərzi, dəllək, bank əməliyyatçısı, müəllim, dülgər, bağban və s. daxildir. Siz çoxmu bu sahədə çalışan əlillər görmüsünüz?

Fiziki cəhətdən qüsurlu şəxslər işləmək istəyirlər. Və onlar öz işinin öhdəsindən də gələrlər. Amma çox təəssüf ki, iş bazarında onlar üçün tam şəraitin yaradılmaması ucbatından onlar əmək fəaliyyəti daha üstün olan sağlam şəxslərlə rəqabət apara bilmirlər. Bu qanun 18 il bundan əvvəl hazırlanmışdır. Amma heç nə dəyişmədi. "Kimdir günahkar?" Bəs bu yazılan qanunların icrasına kim nəzarət etməlidir ki, bu qanun Azərbaycanlı sahibkarlar üçün həyat normasına çevrilsin?!

Bərpa yaradıcılığı

Başqa problemlər də var. Z. Seyidzadə söyləyir ki, bir qayda olaraq əlillərə birdəfəlik yardımla bağlı layihələr az effektlidir. Hər hansı bir təşkilat müəyyən məbləğdə qrant alaraq bir yalnız bir layihə həyata keçirir, vəsaitin qalan hissəsini isə asanlıqla mənimsəyir. Əlillər yenə öz qayıları ilə üz-üzə qalırlar. Uzunmüddətli faydalı nəticə alınması üçün möhkəm maddi, hüquqi zəminə əsaslanmaq lazımdır. Elə bu barədə Z. Seyidzadə BMT-nin Proqramların yerinə yetirilməsi üzrə (konkret bu sahədə) nümayəndəsi ilə ərtaflı söhbət etmişdir:

- Biz bu məqamda vahid mərkəzin -fiziki cəhətən qüsurlu şəxslərin hüquqi, psixoloji, təşkilati problemlərinin həllini öz üzərinə götürmüş bir mərkəzin yaranmasına böyük ehtiyac görürük. Həmin mərkəzdə əlillərə müasir ixtisaslar üzrə-kompyuter texnologiyaları, mühasibatlıq və s. tədris oluna bilərdi. Ən başlıcası isə öz yaradıcı imkanlarını həyata keçirə bilərdilər.

Bəs niyə də fizikii cəhətdən qüsurlu şəxslər üçün Yaradıcılıq Mərkəzi yaradılmasın? Əlillər arasında da yaradıcı insanlar çoxdur. Respublikada hər il əlillər arasında çoxluçoxlu rəsm müsabiqələri, sərgilər, bədii-tətbiqi sənət nümunələrini nümayiş etdirən yarışlar keçirilir, qaliblər mükafatlandırılır. Elə buna görə də nə üçün Yaradlcılıq Mərkəzi yaradılmasın? Amma bu layihələr qısamüddərli olmasın- bu işləri daim dəstəkləmək lazımdır. Bu layihələri isə yalnız və yalnız dövlət tərəfindən maliyyələşmə hesabına həyata keçirmək olar.

Kurort və sanatoriyalar

Respublikamızda böyük imkanlara malik çoxlu idman obyektləri və qurğular tikilir (kompleksler), amma əlillər üçün indiyədək, nədənsə, vahid, böyük bir istirahət mərkəzi yaradılmayıb.

-Z. Seyidzadə cəmiyyəti daha çox narahat edən məsələlərdən birinin də bu olduğunu qeyd edir.

- Bəli , Respublika Əlillərin Bərpa Mərkəzi, Uşaq Bərpa Mərkəzi, Müharibə Əlilləri üçün Pansionat, Protez-Ortopedik Bərpa Mərkəzinin Gəncə filialı, Naxçıvanda ematatxanası, Uşaq Bərpa Mərkəzinin Naxçıvanda, Şirvanda, Şəki, Lənkəran, Sumqayıtda filialları, Naxçıvanda isə regional filialı fəaliyyət göstərir.

Amma əlillər üçün tam yararlı bir sanatoriya tipli istirahət- müalicə müəssisəsi bu günədək yoxdur.

Bu yaxınlarda mən Lənkəranda fiziki cəhətdən qüsurlu olan şəxslər üçün sanatoriyanın yaradılması ilə əlaqədar müvafiq məktubla icra hakimiyyəti orqanlarına müraciət etdim.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi hər il əlilləri Nabrana istirahətə göndərir- bu imkandan yalnız və laynız yerimək qabiliyyəti olan əlillər faydalana bilir. Bu syahıya əlil arabasından istifadə edən və yatağa məhkum olumuş şəxslər daxil deyil! Çünki onlar üçün bu sanatoriyalarda müvafiq texniki imkanlar yoxdur. Amma bu qəbildən olan şəxsləri də istirahətə göndərmək heç də çətin deyil: Mövcud olan profilaktikanı sadəcə əlillərin spesifik sağlamlıq durumuna uyğunlaşdırmaq lazımdır- özü də bu iş az xərc tələb edir.

Oxumaq, oxumaq, yenə də oxumaq!

Əlillərin daha bir böyük problemi təhsil almaq məsələsidir. Konstitusiyaya görə, hər bir vətəndaşın pulsuz təhsil almaq hüququ vardır. Amma əlil vətəndaşlar bu hüquqa sağlam şəxslərə nisbətən heç də asanlıqla sahib ola bilmirlər. Məsələn, Moskva hakimiyyət orqanlarının təcrübəsinə nəzər salsaq görürük ki, hazırda icraatda olan " Fiziki cəhətdən (sağlamlıq imkanlarının məhdudiyyətinə görə) qüsurlu vətəndaşların təhsili üçün" layihəsinə görə, bu şəhərdə həmin qəbildən olan şəxslər üçün hər vilayətdə ya ayrıca müvafiq təhsil müəssisəsi yaradılır, ya da alternativ variant kimi bu tip müəssisələrdə bir neçə xüsusi otaqlar yaradılır.

Bizdə də sanki bu məsələ ilə bağlı vəziyyət dəyişmək üzrədir. Bu yaxınlarda Cingiz Mustafayev Fondu "Fiziki cəhətdən qüsurlu olan uşaqların məlumatlandırma-maarifləndirməsi mühitinin inkişafı" adlı layihənin təqdimatını təşkil etmişdir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirdiyi "Fiziki cəhətdən qüsurlu şəxslərin müasir informasiya texnologiyalarından yararlanması imkanları" adlı layihələrini nümunə göstərmək olar. Yeri gəlmişkən, bu layihənin ilk təşəbbüskarı Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva olmuşdur. Təəssüflər olsun ki, tək-tük layihələrlə əsas məsələni kökündən dəyişmək olmur-bu problem daha çox əlillərin təhsil almaq imkanlarının məhdudluğunda özünü büruzə verir. Məsələn, "Məsafədən təhsil almaq metodu" Azərbyacanda çox zəif inkişaf edib. Amma başqa ölkələrdə əlillər üçün artıq çoxdan təhsilin virtual forması mövcuddur. Bu metoda görə tələbələr məhdudiyyət qoyulmadan, imtahansız, bütün il boyu ərizə əsasında yaşa və sağlamlıq imkanlarına görə təhsil ala bilirlər. Amma bu təhsil prosesi əlillərin təhsil ocağına gəlmədən, yəni "məsafədən" baş verir, müəllimlərlə tələbələr yalnız virtual məsafədən (kompyuter vasitəsilə) ünsuyyət qururlar. Baxın, vəziyyətdən həmişə çıxış yolu vartəki istək olsun.

Əlillər də ölkəmizin ictimai-siyasi, mədəni həyatında iştirak etməyi bacarırlar və onlar bunun öhdəsindən məharətlə gələrlər. Bütün vətəndaşlarımızın hüquqları və imkanları bərabər olmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 12 aprel 2008-ci ildə "Əlillərin hüquqları haqqında Konvensiyaya qoşulmaq" haqda Qanunu təsdiq etdi. Bu Konvensiyanın əsas prinsiplərini sadalayaq:

1. Hər bir insanın malik olduğu şəxsi keyfiyyətləri, müstəqilliyi və şəxsi sərbəst hərəkətlər və azad seçim hüququna hörmət etməli;

2. Hər hansı ayrı-seçkiliyə yol verməməli;

3. Əlillərin özünəməxsusluğunu, insan müxtəlifliyini və onları bəşəriyyətin tərkib hissəsi kimi qəbul etməli;

- imkanların bərabərliyi;
- nail olmaq imkanları;
- kişi və qadınların bərabərliyi;
- əlil uşaqların inkişaf etməkdə olan qabiliyyətlərinə və əlil uşaqların öz fərdiliklərinin qoruyub saxlamaqlarına hörmətlə yanaşılması.

Bəxtiyar Rzayev

Tərbik edirik!

Yanvar ayının 25-də qəzetimizin baş redaktor müavini, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi İdarə Heyətinin üzvü, istedadlı və obyektiv jurnalist Mənsur İbrahimli 40 yaşına qədəm qoydu. Yüksək mənəvi-əxlaqi dəyərləri öz həyat amalı hesab edən Mənsur İbrahimlini respublika ictimaiyyəti həqiqətsevər publisist kimi tanıyır. Qələmin müqəddəs adına və təyinatına sadiq olan Mənsur İbrahimli həm də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Mətbuat və informasiya şöbəsinin müdiridir.

Jurnalist həmkarımızı ad günü münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və yaradıcılığında yeni-yeni uğurlar arzulayırıq.

Hörmətlə,
"Əlillər Dünyası" qəzetinin və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin kollektivi

"MÜXTƏLİFLİYİ QƏBUL ET, AYRI-SEÇKİLİYƏ SON QOY"- İNSAN HÜQUQLARI GÜNÜNÜN DEVİZİ

Dekabr ayının 10-da BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, BMT-nin Əhali Fondu və Miqrasiya üzrə Beynəlxalq Təşkilatı ilə birgə BMT-nin İctimai İnformasiya Departamenti İnsan Hüquqları Gününə həsr edilmiş dəyirmi masa təşkil etdi. "İnsan Hüquqları günü: Müxtəlifliyi qəbul et, ayrı-seçkiliyə son" adı altında keçirilən görüşdə, əsasən, qadınlar, əlillər və mühacirlər kimi ayrı-seçkilik nəticəsində Azərbaycan da daxil olmaqla bir sıra dünya ölkələrində hüquqları pozulan insan qrupları daha çox müzakirə olundular.

BMT-nin İctimai İnformasiya Departamentinin Azərbaycan üzrə nümayəndəsi xanım Envera Selimoviç öz açılış nitqində bunları demişdir: "Yarandığı ilk gündən bəri BMT-nin əsas məqsədlərindən biri də irqindən, dilindən, cinsindən və ya dinindən asılı olmayaraq, hər bir insanın hüquqlarını, onun şərəf və ləyaqətinin qorunması üçün çalışmaqdadır". Lakin xanım Selimoviçin sözlərinə görə, ayrı-seçkilik hələ də demək olar ki, bütün cəmiyyətlərdə mövcuddur. BMT-nin Baş Katibi Pan Ki-Mundan sitat gətirərək "heç bir ölkə ayrı-seçkilikdən sığortalanmayıb. Biz ayrı-seçkiliyi hər yerdə və müxtəlif formalarda görürük: yeni və köhnə, gizli və aşkar, ictimai və ya şəxsi həyatda"-deyə BMT-nin İctimai İnformasiya Departamentinin Azərbaycan üzrə nümayəndəsi əlavə etdi.

Öz açılış nitqini bitirərkən xanım Selimoviç ayrı-seçkiliyin mövcud olduğu hər yerdə ona qarşı mübarizə aparmağın həyati vacibliyini vurğulayaraq iştirakçıları BMT-nin İctimai İnformasiya Departamenti tərəfindən Azərbaycan dilinə tərcümə edilmiş BMT Baş Katibinin İnsan Hüquqları Günü ilə bağlı video-mesajına baxmağa dəvət etdi.

Video-mesaja baxdıqdan sonra xanım Selimoviç sözü BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqaz üzrə Regional nümayəndəsi cənab Vladlen Stefanova verdi. O, öz növbəsində dözümsüzlük, qərəzlilik və ayrı-seçkiliyin insan hüquqlarını pozan ən əsas amillər olduğunu vurğuladı. "Bizim əsas məqsədimiz ayrı-seçkiliyin olmadığı hər kəsə qarşı eyni münasibətin mövcud olduğu sağlam cəmiyyətin qurulması ideyasını təbliğ etməkdir"-deyə cənab Vladlen BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının nitqindən sitat gətirdi.

Daha sonra BMT-nin Əhali Fondunun Regional nümayəndəsinin müavini Fərid Babayev çıxışında gender bərabərliyi məsələsinin insan hüquqları pozulmasında əsas rollardan birini oynadığını vurğuladı. YUNİSEF-in Uşaq proqramının rəhbəri Munir Məmmədov isə əlil insanların öz iştirak hüquqlarından istifadə etmək istədikdə qarşılaşdıqları problemlərə diqqəti yönəltdi. Bu çıxışlardan sonra iş həyatında uğurlara imza atmaq üçün qadınların mübarizəsini əks etdirən "Şüşə tavan" adlı qısametrajlı film və yaşlı və əlil insanların üzləşdikləri ayrı-seçkiliyi açıq-aydın göstərən "İştirak" adlı filmlər nümayiş etdirildi.

Tədbirin ən yaddaqalan hissələrindən biri isə əlilliyi olan gənc cənab Zaur Seyidzadənin çıxışı oldu. Xanım Selimovic sözü cənab Seyidzadəyə verməzdən əvvəl bu cümlələri söylədi; "İş axtaran əlil insanlara qarşı ayrı-seçkiliyə son qoymaqla, onların vergi ödəyə və öz insanlıq şərəfini qoruya bilən cəmiyyətə yararlı fərdləri olduğunu aşkar etmək olar."

"Təəssüflər olsun ki, əlil insanlar, demək olar ki, ictimai həyatdan tamamilə təcrid olunublar. Əlil insanlar bir çox hallarda savadsız, işsiz, başqalarından asılı və cəmiyyətdə tamamilə gözəgörünməz olurlar"-deyən cənab Seyidzadə iki universitet təhsilinin olmasına baxmayaraq, ayrı-seçkiliyin nəticəsi olaraq hələ də iş tapmaqda çətinlik çəkdiyini vurğuladı.

Tədbir Beynəlxalq Miqrasiya Təşkilatının missiya rəhbəri Vasiliy Yujaninin çıxışı ilə davam etdi. O, isə öz növbəsində hətta ən inkişaf etmiş cəmiyyətlərdə belə mühacirlərə qarşı edilən ayrı-seçkiliyə diqqət yönəltdi. Onun nitqindən sonra isə pis həyat şəraiti ucbatından qeyri-qanuni yolla xaricə işləməyə gedən Azərbaycan qadının insan alverinin qurbanına çevrilməsindən və cinsi istismara məruz qalmasından bəhs edən "Satılmış həyat" adlı sənədli film nümayiş etdirildi.

Filmdən sonra Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanovanın iştirakı ilə aktiv müzakirələr başladı. Xanım Qəhrəmanova isə bir çox hallarda ailənin insan hüquqları pozulmasının əsas qaynağı ola bilməsi faktına diqqət çəkdi. "Bu səssiz və cəzasız qalan, lakin insan hüquqlarının ən kəskin şəkildə pozulması hallarının qarşını almaq üçün Azərbaycan ailə-məişət zorakılıq haqqında qanunu mütləq qəbul etməlidir"- deyə xanım Qəhramanova bildirib.

İştirakçılar arasında qadın, küçə uşaqları, qaçqın və məcburi köçkün, əlil insanların hüquqlarının müdafiəsi ilə məşğul olan QHT nümayəndələri də fürsətdən istifadə edərək bu tip həssas məsələlərlə bağlı görülən işlərin müsbət və mənfi cəhətlərini işıqlandırdılar.

3 saatlıq tədbirdə yekun nitqini söyləyən xanım Selimovic dedi: "Bu gün bizim bərabərlik və ayrı-seçkiliksiz həyat haqqında insanları məlumatlandırmaq üçün birləşmək şansımız var. Çünki bu il İnsan Hüquqları ili kimi qeyd edilir. Mən səmimi qəlbdən inanıram ki, bu dəyirmi masa insan hüquqlarına hörmət baxımından bir stimul rolunu oynayacaq. Bu isə xüsusilə şəhərətrafı və kəndlərdə yaşayan insanlara aid edilməlidir. Təcrid olunmuş cəmiyyətlərdə fərqli davranılan bu insanların kömək və dəstəyə ehtiyacları var".

Tədbirdə qəzetimizin və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin əməkdaşları da iştirak etmişlər.

20 Yanvar faciəsinə həsr olunmuş inşa yazı müsabiqəsinə yekun vurulmuşdur

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi Azərbaycan Respublikası Gəncliyə Yardım Fondu və Azərbaycan Tələbə Gənclər İttifaqı İctimai Birliyi ilə birlikdə 18 yanvar 2010-cu il tarixində Gəncliyə Yardım Fondunun konfrans zalında 20 Yanvar faciəsinin 20-ci ildönümünə həsr olunmuş "20Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir" mövzusunda tədbir keçirmişdir.

Tədbirdə 20 Yanvar faciəsini əks etdirən rəsmlər nümayiş etdirilmiş, videoçarx göstərilmişdir.

Həmçinin tədbirdə orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında " 20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir" mövzusunda keçirilmiş inşa yazı müsabiqəsinə də yekun vurulmuşdur. Müsabiqədə I, II, III yerləri tutmuş və fərqlənmiş şagirdlər təşkilatçılar tərəfindən müvafiq diplomlar, xatirə hədiyyələri və pul mükafatları ilə təltif olunmuşlar.

Onu da bildirək ki, həmin müsabiqədə Nizami rayonundakı 145 saylı məktəbin IX d sinif şagirdi İnara Baxşəliyeva III yeri tutmuşdur. Baxmayaraq ki, İnara Baxşəliyeva həmin məktəbin rus bölməsində təhsil alır, lakin öz istedadı sayəsində Azərbaycan dilində keçirilmiş inşa yazı müsabiqəsində layiqli yer tutmağa nail olmuşdur. Bu qələbəsi münasibətilə kollektivimiz adından İnara Baxşəliyevanı təbrik edir, ona təhsildə yeni-yeni uğurlar arzulayırıq.

"Əlillər Dünyası"

Mina qurbanlarının sayı artır

Minalar əleyhinə Azərbaycan Kompaniyası İçtimai Birliyinin sədri Hafiz Səfixanovun redaksiyamıza verdiyi məlumata görə, 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan Respublikası arasında atəşkəs müqaviləsi imzalanmağına baxmyaraq, minaların Azərbaycan ərazisində apardığı qanlı müharibə davam etməkdədir. Minalar əleyhinə Azərbaycan Kompaniyası İB-nin hökumət strukturlarından, yerli və hərbi xəstəxanalardan, özunun regionlardakı koordinatorlarından və mətbuatdan aldığı məlumatlara görə, 2009-cu il ərzində 24 hadisə nəticəsində 32 nəfər mina və partlamamış hərbi sursatların qurbanı olmuşdur.

Yeddi hadisə Milli Ordu ilə baglı olmuşdur ki, bunların da nəticəsində üç əsgər həlak olmuş və daha beş əsgər isə müxtəlif dərəcədə yaralanmışdır. Bundan başqa, bir nəfəri həlak olmuş, 23 nəfər müxtəlif dərəcədə yaralanmaqla mülki şəxslər də mina və partlamamış hərbi sursatların qurbanı olmuşdur. Mina və partlamamış hərbi sursatların qurbanı olmuş şəxslərin 3 nəfəri qadın, 29 nəfəri kişilərdir. Bədbəxt hadisələrin baş verməsinə ən çox piyadalar əleyhinə minalar və partlamamış hərbi sursatlar səbəb olmuşdur.Tank əleyhinə minalarla baglı 7 hadisə qeydə alınmışdır.

Ötən ildə baş vermiş hadisələr Bakı şəhərində, Füzuli, Tərtər, Agcabədi, Agdam, Agstafa, Xocavənd, Göygöl, Qazax, Daşkəsən və Tovuz rayonlarının ərazisində qeydə alınmışdır.

Minalar əleyhinə Azərbaycan Kompaniyası İB təəssüf hissi ilə bildirir ki, 2008-ci illə müqayisədə 2009-cu ildə mina və partlamamış hərbi sursatların qurbanlarının sayı artmışdır.

2008-ci ildə Minalar əleyhinə Azərbaycan Kompaniyası İB 19 hadisə nəticəsində 23 mina və partlamamış hərbi sursatların qurbanını qeydə almışdır.

Cahid Sabiroğlu

Hacı Yusif Qulammirzə oğlu

Ölüm

Ürəyində varsa əgər ayəti-Qurana inam,
"Canlı hər kəs öləcəkdir",-bunu sal yadə müdam.
Nə qədər var bu həyat, zərrə pozulmaz bu nizam,
Min il ömr eyləmiş olsan da, nəhayətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Bu ölümlə yatan insan ayılır qəflətdən,
Bədəni birdəfəlik qurtaracaq zillətdən.
Ruhu azad olaraq nura gedər zülmətdən,
Qibləyə üz çevirər, Həqqə ibadətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Ən gözəl xoş gün o gündür ki, verib canını sən,
Şəriət hökmünə uyğun olasan qüsli-kəfən.
Tabutun qaldırılanda ucalar vay-şivən,
Nəşin əllərdə gedərkən necə ləzzətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Bir sual ver özünə:- Həzrəti Peyğəmbər hanı?
Nə üçün az yaşayıb tərk elədi dünyanı?
Dini-İslama şərəf verdi Hüseynin qanı!
Vətən uğrunda, din uğrunda şəhadətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Yalvarıb çox da ömür arzulama sən özünə,
Ki, əlacsız qalıb axırda döyərsən dizinə.
Nifrət et böylə cahanın daşa dönmüş üzünə,
Acı da olsa götür, içməli şərbətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Heç düşündünmü, ölüm olmasa insan nə olar?!...
Sürünər yerdə ilantək, düşər əldən, yorular.
Sönər aləmdə həyat eşqi, ümidlər qırılar,
Bunları eylə təsəvvür, demə:-Dəhşətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Gecə-gündüz göyə qalxır kasıbın fəryadı,
Bu fəna dəhrdə yoxdur, çün onun imdadı.
Bir tərəfdən də əgər nankor ola övladı,
Belə zülmi yaşamaqdansa, fəxarətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Elə bir tərsinədir hər bir işi dünyanın,
Səngimək bilməyir heç kəşməkəşi dünyanın.
Nə qədər zər atıram, yoxdu şeşi dünyanın,
Bu təhər ömr eləməkdənsə, səadətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Hər gedən söylədi:-Dünyada vəfa yoxdur, yox!
Ağrısı, zilləti əvvəlki kimi çoxdur, çox!
Ac olan acdır əzəldən, tox olan toxdur, tox!
Haqq-ədalət yox olan yerdə, həqiqətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Hamının arzusunu qoydu gözündə bu fələk,
Belə dünyaya ürək mehrini vermək nə gərək?!
Min cəfa görməsə insan, tapa bilməz su, çörək.
Xəstəlik gəlsə görərsən ki, zərurətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Belə ağır səfərə biz çıxarıq qəlbi qubar,
Amma bu ayrılığın çox qısa, az müddəti var.
Hər kəs öz istədiyin, yalnız o dünyada tapar,
Ağlasığmazdı o aləm, əbədiyyətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Yusifa, hamı gedir, sən də yığışdır şələni,
Çün əcəl xəlvəti sənçün də qurubdur tələni!
Vədəsi gəldi gedər, saxlamaq olmaz öləni,
Yarə yetməkdi, vüsal eşqı, məhəbbətdir ölüm!
Tanrının bəndələrə verdiyi nemətdir ölüm!

Qəzetin Redaksiya Heyəti və "Beynəlxalq Əlillər Cəmiyyəti" İB-nın İdarə Heyətinin üzvləri

Rafiq Əziz oğlu Əliyev
ADNA-nın Avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri, texnika elmləri doktoru, professor, ABŞ-ın Corciya Dövlət Universitetinin Biznesin idarə olunması Proqramının direktoru, (yalnız "Əlillər Dünyası" müstəqil ictimai-siyasi qəzetinin Redaksiya Heyətinin üzvüdür)

Nisəxanım Məmməd qızı Mirişli
Ə.Əliyev adına ADHTİ Yoluxucu xəstəliklər kafedrasının müdiri, professor, tibb elmləri doktoru, Ekologiya və həyat fəaliyyəti təhlükəsizliyi elmləri Beynəlxalq Akademiyasının akademiki,

Qədir Cərkəz oğlu Rüstəmov
Respublikanın xalq artisti, "Şöhrət" ordenli, II qrup əlil,

Mir Müstəqil Mir Bağır oğlu Ağayev
AMEA-nın Fəlsəfə, Sosialogiya və Hüquq İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə elmləri doktoru,

Mirsiyab Mirsiyab oğlu Rəhmanov
əmək veteranı,

Mansur Qüdrət oğlu İbrahimli,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü,

Akif Səməd oğlu Əliyev
ADPU-nun dosenti, filologiya elmləri namizədi, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, I qrup əlil

Niyazi Məhəmməd oğlu Məmmədov
məcburi köçkün, I qrup Qarabağ müharibəsi əlili,

Hüsaməddin Bərxudar oğlu Xudiyev
II qrup Qarabağ müharibəsi əlili,

Mahir Əvəz oğlu Əzizov
II qrup Qarabağ müharibəsi əlili,

Fikrət Kamran oğlu Sirinov
əmək veteranı,

Fikrət Fərəc oğlu Babayev
I qrup əlil,

Məlahət İsfəndiyar qızı Abdullayeva
məktublar şöbəsinin müdiri,

Cahid Sabir oğlu Qasımov
məcburi köçkün, Qarabağ müharibəsi veteranı,

Bəxtiyar Xuduyev
I qrup gözdən əlil

Siyəddin Lənkəran oğlu Cəfərov
hüquqşünas

"Əlillər Dünyası Qəzeti Redaksiyası" MMC-nin təsisçisi və direktoru
Tahir Xudiyev
Tel: (050) 363-99-09

Redaktor: Bəşir Mahmudov

Buraxılışa məhsul "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi

Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb səhifələnmiş və "Ekspress Servis" mətbəəsində çap olunmuşdur.
Müəllif və redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.

Şəhadətnamə № 0104-P6940826
"Texnikabank" KB-nin Nizami filialı
H/h: 38030001490001
Valyuta hesabı: 38130001490001
VÖEN: 1600089551
Tiraj: 5000
Sifariş: 255

E-mail:
elillerdunyasi@rambler.ru
a.r.bec@mail.ru
Ünvan: Ş. Mirzəyev - 34
Tel.-Faks: (012) 421-54-08